

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "TƏLƏBƏ TAQIMI"

**Müasir Azərbaycan nəsrində müharibə mövzusu ilə bağlı əsərlər sayca o qədər də çox deyil. Gəlin etiraf edək ki, şeirdən fərqli olaraq, nəsrdə gözə görünən bir boşluq var. Yazılan əsərlərin də heç də hamısı həm mövzu, həm də sənətkarlıq baxımından bizə ümid vermir ki, deyək: bax, bu əsər müharibə haqqında dolğun bir təsəvvür yaradır. Deyək ki, bu əsər bir Azərbaycan əsgərinin keçdiyi döyüş yolunu, onun hiss və həyəcanlarını, yaşantılarını, qələbə sevincini ya da məglubiyyət acısını və nəhayət, azərbaycanlı xarakterini əks etdirsin.**

Yalnız barmaqla sayılacaq iki-üç əsərin adını çəkə bilərəm. Sabir Əhmədlinin "Axirət sevdası", Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə", Elçin Hüseynbəylinin "Əsir" və "Gözünə işıq düşmüş adam" əsərləri Qarabağ müharibəsi haqqında müəyyən təsəvvür yaradır. Niyə belə bir vəziyyət yaranıb? Müxtəlif səbəblər göstərə bilərik. Niyə Azərbaycan nəsrindən bu əsərlər istisna olunmaqla müharibə iyi gəlmir, müharibə insanının dolu obrazını görə bilmirik? Niyə, məsələn, Mübariz İbrahimovun qəhrəmanlığı ona layiq olacaq bir romanda öz təcəssümünü tapmır? Əlbəttə, çox səbəb göstərmək olar, mən birini deyim: əgər bir yazıçı müharibədən yazırsa, o, canlı müşahidələr, real görüntülər, təəssüratlar əsasında, yəni müharibə gedən bir bölgədə özünün də iştirakı ilə… bunu həyata keçirə bilər.

## Bir yazıçı kimi

***diqqətimi çoxdan cəlb edən Etibar Muradxanlı Qarabağ müharibəsində könüllü olaraq iştirak etmiş və gözləri qarşısında baş verən hadisələri izləmiş, onların mahiyyətinə varmış və bundan sonra qələmə sarılmışdır. Necə deyərlər, özünü müharibə adamı kimi hiss edib yazmağa başlamışdır. Mən onun "Azərbaycan" jurnalında çap olunmuş bir povestini oxumuşam. Həm o povestdə, həm də yenicə çapdan çıxan "Tələbə taqımı" kitabındakı eyni adlı romanda onu bir jurnalist kimi yox, məhz yazıçı kimi gördüm. Hətta heyrətləndim ki, Etibar Muradxanlı müharibə texnologiyası ilə bağlı bu qədər bilgiyə, məlumata necə yiyələnib? Görünür, burada yazıçı peşəkarlığı ilə yanaşı, həm də müharibəni içindən keçirmək kimi, öz hissiyyatında yaşatmaq kimi dərin bir duyğu da yaşarmış.***

"Tələbə taqımı" məncə, sənədli romandır-buna heç şübhə yox, çünki kitabda həmin romandakı obrazların fotoları da əks olunub. Amma romanı oxuduqca onun sənədli ya bədii əsər olduğunun fərqinə varmırsan. Çünki burada əsl müharibənin özünü görürsən. Rövşən, Fərhad, Arif, Xudaverən, Natiq, Məcid, Ümidvar, Cəmil, Təbriz, Baxış…bu tələbələr könüllü olaraq Qarabağ müharibəsinə yollanır, "Tələbə taqımı" təşkil edərək döyüşlərdə iştirak edirlər-çoxu da qəhrəmancasına həlak olur. Etibarın bu "Tələbə taqımı"nın hər addımını, hər döyüş səhnəsini izləyə-izləyə adi döyşçüdən qəhrəmanlığa, qəhrəmanlıqdan isə şəhidliyə gedən prosesi necə canlı təsvir etməsi…kitaba ön söz yazan Əsəd Cahangirin belə bir fikrini təsdiq edir ki: "Etibar ləyaqətli, güclü, iradəli, xeyirxah insan surətləri, bir sözlə, müsbət qəhrəmanlar yaratmağa meyl edir. Məhz bu üzdən onun qəhrəmanları oxucunu öz ardınca aparmağa qadirdir". Və Etibar çalışır ki, tələbə döyüşçülərin xarakterinə süni qəhrəmanlıq yarlıqları yapışdırmasın, axı, bu, müharibədir, düşmən də güclüdür, bizə qarşı



təkcə ermənilər vuruşmurdu, rus ordusu da xain qonşularımızla bir sıradaydılar.

Mən "Tələbə taqımı" əsərində təsvir olunan döyüş səhnələrindən, komandir Rövşənin, Arifin, Məcidin, Ümidvarın və digərlərinin qəhrəmanlığından söz açan səhifələrdən danışmaq istəmirəm. Bu səhnələr mənim fikrimcə, professionallıqla yazılıb. Amma əsərdə bu qırğınların, bu döyüş səhnələrinin olmasıyla yanaşı, bir qədər də daha təsirli epizodların təsvirini uğurlu sayıram, məsələn, Rövşənin odlu şəhid olan bir anna ilə görüşü, Fərhadın Şuşanın işğalı ilə bağlı keçirdiyi həyəcanlar, təbii ki, müharibədən bəhs edən bir əsərdə belə lirik-emosional səhnələrin olması vacibdir.

## Bu əsərlə bağlı

***bir iradımı bildirmək istəyirəm. Etibar Muradxanlı təsvir etdiyi tələbə döyşçüləri əsasən vuruşan, döyüşən, yaralananan, qəhrəmancasına şəhid olan döyüşçülər kimi təqdim edir. Bəs onların mənəvi aləmi? Bu döyüşçülər birinin sevgilisi yoxmu, ata-anası yoxmu? Yadıma vaxtilə böyük tənqidçimiz Məmməd Cəfərin Hüseyn Abbaszadənin "General" romanı haqqında yazdığı məqalə düşür. O məqalədə Məmməd Cəfər müəllim Hüseyn Abbaszadəyə irad tuturdu ki, sizin təsvir etdiyiniz romanda döyüş səhnələri yetərincədir, amma bu döyüşçülərin mənəvi dünyası layiqincə əks olunmayıb. Müharibə təkcə döyüşmək, vuruşmaq, əsir almaq, ölmək-öldürmək deyil. Yaxud qraf Tolstoyun "Hərb və sülh" romanını yada salmaq olar. Bax, Etibarın romanında da belə bir çatışmazlıq nəzərə çarpır. Necə deyim, Əsəd Cahangirin dediyi "sözün ön və arxa cəbhəsi" var, amma müharibənin ön cəbhəsi varsa, arxa cəbhəsi yaxud bu iki cəbhənin qarşılıqlı əlaqəsi görünmür. Gələcək romanlarında yəqin ki, bunu nəzərə alar.***

"Fəridə nənəgilin pəncərələri" povestində Etibarın təbii həyata, gerçəkliyə, adi insanların mənəvi dünyasına müraciəti uğurlu alınmışdır. Bir yazıçı üçün o gərgin döyüş səhnələrindən adi evailə, məişət hadisələrinə qayıtmaq … Məncə, Etibar üçün məkanın elə bir əhəmiyyəti yox.

## Əsas məsələ təsvirlərin reallığıdır

***Təqdim etdiyi obrazların inandırıcı verilməsidir. Povestdə oğlu Rusiyada yaşayan Fəridə nənənin gündəlik həyatı oğlu Nazimlə bağlı keçirdiyi həyəcanlı anlar, iş yerində darıxdırıcı keçən günləri əks olunub. Deyərdi ki, Fəridə nənə obrazı çox təbiidir, canlıdır, 60-70-80-ci illərdə bizim nəsr əsərlərimizdə təsvir olunan nənələrə heç oxşamır. Onunla bahəm Rəhim kişi obrazı da pis alınmayıb, hərçənd ki, bu obrazın təsvirində yarımçıq cizgilər nəzərə çarpır. Onun ölümü də təsirlidir. Təbii ki, əsərdə ana-oğul münasibətləri mühüm yer tutur və oğulun-Nazimin rus ordusunda xidmət etməsi, öz həyatından razı qalması anada təəssüf doğurur. Oğul məktubda yazır ki, komandirlərim də mənim gələcəyimə inanırlar. İnşallah, tezliklə qarşında gənc bir general görəcəksən. Fəridə nənə isə belə düşünür: "Kaş general yox, əsgər görəydim. Oğul, adi, sıravi əsgər. Amma ləyaqətli, Vətəninin qeyrətini çəkməyi bacaran, yeri gələndə onun uğrunda ölməyə layiq olan, buna cəsarəti çatan mərd bir əsgər!- gözlərinin yaşını sildi. Və o gün Fəridə nənə heç vaxt şikayətlənmədiyi, taleyindən heç vədə gileylənmədiyi, oğlundan narazılığını bildirdi. Ağladı. Yetmiş illik həyatında heç kəsin görmədiyi göz yaşları axıtdı". Məncə, bu kiçik epizod povestin bütün qayəsini gözəl ifadə edir. Belə təsirli səhnələrin Etibarın nəsr əsərlərində çox olmasını arzulayıram.***

Etibar Muradxanlının "Qaç, nə qədər gec deyil" hekayəsi də maraqlıdır. Hekayə bir Vətən xaininin ifşasına həsr olunub. Bu vətən xaini indi müstəntiq Pənahlının qarşısındadır. Pənahlı ona "qaç, canını qurtar" deyir, vəsfi-Vətən xaini buna sevinir, amma canını qurtara bilmir, əməliyyat qurulur və o, öz cəzasına çatır. Məncə, Etibar başqa bir yol seçə bilərdi- həmin o Vətən xainini Şəhidlər xiyabına apara bilərdi, yaxud onun xəyanəti nəticəsində öldürülən bir döyüşçünün anası ilə görüşdürə bilərdi. Amma mən yazıçılıq etməyi bacarmıram, qoy Etibar yazan kimi olsun.

**Və sonda. Mən Etiabar Muradxanlıya yaradıcılıq potensialı dolu, yüksəlişdə olan bir yazıçı kimi inanıram, inanıram ki, o, ən gözəl əsərlərini bundan sonra yazacaq… Uğurlar!**

Ədalət.- 2020.- 12 sentyabr. S. 15.